İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ
Bakı, AZ1122, Zərdabi küç., 96
431 12 72 430 52 85
office@isim.az www.isim.az

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
İctimai Səhiyyə və İslahatlar Mərkəzi

# İLLİK HESABAT 2022

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi

İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ


İCTİMAİ
SƏHİYYƏ VƏ
İSLAHATLAR

**QƏHRƏMAN HAQVERDİYEV**
*Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru*




**Hörmətli dostlar,**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) tərəfindən 2022-ci il ərzində görülən işlərə dair məlumatları sizə təqdim edirik.

Hesabat dövrünün nəticələrindən danışarkən ilk növbədə onu vurğulamaq lazımdır ki, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin əsas fəaliyyət istiqamətlərinə xüsusi diqqəti İSİM-in qarşısına qoyulan məqsəd və öhdəlikləri layiqli nəticələrlə yerinə yetirməyə imkan yaratdı.

Təəssüf ki, COVID-19 pandemiyası ötən il də davam etdi.
Amma pandemiyanın yaratdığı çətinliyə baxmayaraq, İSİM kollektivi əzmlə çalışdı.
Ona görə ötən il bizim üçün məhsuldar və dolğun bir il oldu.

Ölkəmizdə 2021-ci ilin aprel ayından etibarən 1500 tibb işçisinin iştirakı ilə COVID-19 xəstəliyinə qarşı vaksinlərin effektivliyinin öyrənilməsinə başlandı.
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) dəstəyi ilə İSİM tərəfindən həyata keçirilən, bir neçə Avropa ölkəsi ilə eyni vaxtda aparılan bu genişmiqyaslı tədqiqatın ötən il növbəti mərhələsinə start verildi. Bu mərhələdə aparılan tədqiqat sayəsində, infeksiyanı təbii keçirmiş və 2, 3 və 4 doza vaksinasiyadan sonra immunitetin nə qədər qalıcı və güclü olduğunu müəyyən etmək imkanı yarandı. Həmçinin, tədqiqatın bu ikinci mərhələsində qrip virusunun yayılması və başvermə tezliyi də öyrənildi.

Ötən il ölkəmizdə ilk dəfə daha bir əhəmiyyətli araşdırma – uşaqlar arasında artıq çəki və piylənmənin risk amillərinin öyrənilməsinə dair tədqiqat aparıldı. ÜST-nin Avropa üzrə Regional Ofisinin Uşaqlarda Piylənməyə Nəzarət Təşəbbüsü (COSI) tədqiqatı İSİM tərəfindən Təhsil Nazirliyi ilə əməkdaşlıq çərçivəsində və ÜST-nin metodologiyaları, beynəlxalq koordinasiyası və dəstəyi ilə həyata keçirildi.

İSİM tərəfindən 2022-ci ildə müxtəlif istiqamətlər üzrə sorğular aparıldı, xəstəliklərin müalicəsi və profilaktikası üzrə 54 klinik protokol son elmi tədqiqatlara əsasən yenilənərək *www.isim.az* saytına yerləşdirildi, tibbi-maarifləndirici mobil əlavələr hazırlandı, çap materialları hazırlanaraq nəşr edildi, sağlam həyat tərzini təbliğ edən sosial çarxlar istifadəyə verildi, tibb işçilərinin bilik və bacarıqlarının inkişaf etdirilməsi istiqamətində müxtəlif təlimlər təşkil olundu, sağlamlığın qorunması istiqamətində sosial şəbəkələrdə geniş təbliğat aparıldı, paytaxtda və regionlarda əhali arasında silsilə tədbirlər, aksiyalar keçirildi...

Ümid edirəm ki, illik Hesabatımız ölkəmizdə səhiyyə siyasətinin inkişafına öz töhfəsini verən İSİM-in fəaliyyəti, gördüyü işlər barədə dolğun təsəvvür yaradacaq və dövlət orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları kimi etibarlı tərəfdaşlarla birgə əməkdaşlığa köməklik göstərəcək.



# Azərbaycan Respublikası Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzi

İctimai səhiyyə dedikdə profilaktik, klinik xidmətlər, tibb müəssisələrinin xidmətlərinə nəzarətlə yanaşı, milli səhiyyə sisteminin fəaliyyətinə aid olan – sağlamlığa birbaşa və ya dolayı yollarla təsir edən amillərə nəzarət, ətraf mühitin mühafizəsi məsələləri, sağlam həyat tərzinin təbliği və dəstəklənməsi, sağlamlıqla bağlı problemlərin aradan qaldırılması üçün strategiyaların, səhiyyə proqramlarının hazırlanması və s. kimi mütəşəkkil fəaliyyətlər nəzərdə tutulur.

**İctimai Səhiyyə və İslahatlar Mərkəzi** Azərbaycanda əhalinin sağlamlığının qorunması üzrə islahatların elmi əsaslandırılması, səhiyyə qanunvericiliyinin müasir tələblərə və aparılan islahatlara uyğunlaşdırılması, tibb işçilərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, ilkin səhiyyə sahəsində islahatların aparılması və müasir texnologiyaların səhiyyədə tətbiqi üzrə təklifləri hazırlayır.

Əhalinin sağlamlığının qorunması sahəsində İSİM tərəfindən müntəzəm olaraq profilaktik tədbirlər həyata keçirilir, müxtəlif maarifləndirici çap materialları (plakat, buklet, vərəqə və s.) hazırlanaraq çap edilir, bu istiqamətdə sosial çarxlar çəkilir, mobil əlavələr hazırlanır, sosial şəbəkələrdə daim fəal təbliğat aparılır. Tibbi maarifləndirilmənin və əhali arasında məlumatlılığın artırılması məqsədi ilə İSİM tərəfindən bir neçə sayt yaradılaraq istifadəyə verilib:

- www.isim.az
- www.ecourses.az
- www.saglamliq.isim.az
- www.tobaccocontrol.az
- www.sorgular.az

## İSİM-də aşağıdakı şöbələr fəaliyyət göstərir:

- Səhiyyə siyasəti və planlaşdırma şöbəsi
- Səhiyyə kommunikasiyası şöbəsi
- Tibbi keyfiyyət standartları şöbəsi
- Layihələrin əlaqələndirilməsi şöbəsi
- Təlim-resurs şöbəsi
- İctimai sağlamlıq şöbəsi
- İlkin səhiyyə və ailə təbabəti şöbəsi
- Monitorinq və təhlil şöbəsi
- Səhiyyə texnologiyaları və teletəbabəti şöbəsi
- Akkreditasiya şöbəsi
- Sertifikasiya şöbəsi

**İSİM həm yerli, həm də beynəlxalq təşkilat və qurumlarla sıx əməkdaşlıq edir**

World Health Organization | CDC | unicef | UNFPA

## Tibb işçiləri üçün hazırlanan “MD Simulyasiya” platformasının təqdimatı keçirildi

**İSİM, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) və “Equinor Apsheron AS” şirkətinin birgə layihəsi olan “MD Simulyasiya” platformasının təqdimatı keçirildi.**



10 yanvar 2022-ci il

KİV nümayəndələri və tibb işçiləri üçün təşkil olunan tədbirdə vurğulandı ki, “MD Simulyasiya – müxtəlif ssenarili müayinə və müalicə simulyatoru” tibb sahəsində rəqəmsal texnologiyaların tətbiqi istiqamətində atılan ən son addımlardan biridir.

Qeyd edək ki, platformada (https://mdsimulyasiya.az/) qeydiyyat və istifadə ödənişsizdir. Bu simulyasiyalar kompüterlər və əksər planşetlər üçün optimallaşdırılıb.



25 yanvar 2022-ci il

## İSİM tərəfindən “İlk yardım” mobil tətbiqi istifadəyə verildi

**İSİM, “Uptodate İn Medicine” və “Ezgil” tibbi texnologiyalar şirkəti tərəfindən yaradılan “İlk yardım” mobil tətbiqinin təqdimatı oldu.**

İSİM-in direktoru Qəhrəman Haqverdiyev bildirdi ki, yeni mobil tətbiq xilasetmə məsləhətlərinin hər zaman, hər yerdə əlçatan olmasına imkan verir.

İSİM-in Səhiyyə siyasəti və planlaşdırma şöbəsinin müdiri Nabil Seyidov vurğuladı ki, yeni mobil əlavəni telefon və ya planşetə yükləyərək, təcili tibbi yardım xidmətləri və ya digər təcili yardım qurumları tərəfindən lazım olduqda və ya təlimat verildikdə ilk yardım tədbirlərini həyata keçirmək mümkündür.

**Apple və Android mobil cihazları üçün mövcud olan “İlk yardım” mobil tətbiqini yükləyərək, ilk tibbi yardım və fövqəladə hallarda yardım üzrə bilik və bacarıqlar əldə etmək olar. “İlk yardım” mobil tətbiqini Google Play Market və App Store-dan yükləmək mümkündür.**



**Daha ətraflı: https://isim.az/az/pages/46-Mobil-elaveler**

## Azərbaycanda uşaqlar arasında artıq çəki və piylənmənin risk amillərinin öyrənilməsinə dair tədqiqat aparıldı

**Azərbaycanda ilk dəfə İSİM tərəfindən ÜST-nin Avropa üzrə Regional Ofisinin Uşaqlarda Piylənməyə Nəzarət Təşəbbüsü (COSI) tədqiqatı Təhsil Nazirliyi ilə əməkdaşlıqla və ÜST-nin dəstəyi ilə 2022-ci ilin aprel-may aylarında keçirildi.** COSI 2005-ci ildə yaranıb və bu sistemin məqsədi məktəbyaşlı uşaqlar arasında artıq çəki və az çəki ilə bağlı tendensiyaları araşdırmaqdır. Bu tədqiqat ilk dəfə 2007-2008-ci ildə 12 ölkənin iştirakı ilə keçirilib və 268 min uşağın çəkisi ölçülüb. Tədqiqatın 2019-cu ildə keçirilən V raundunda isə 400 mindən çox uşağın çəkisi ölçülüb.

Azərbaycan bu sistemə 2020-ci ildə qoşulsa da, tədqiqatın aparılması COVID-19 pandemiyası səbəbindən baş tutmayıb. Tədqiqatın 2021-2023-cü illərdə keçirilməsi nəzərdə tutulan VI raundunda Azərbaycan da daxil olmaqla 40-a yaxın ölkə iştirak edir. Hər iştirakçı öz ölkəsi üzrə 6-9 yaşlı uşaqlar arasında sorğu məlumatlarını toplamalıdır. Tədqiqat ÜST-nin metodologiyaları, beynəlxalq koordinasiyası və dəstəyi ilə həyata keçirilir.




15-16 mart 2022-ci il




## Ümumdünya Piylənmə ilə Mübarizə Gününə həsr olunmuş Beynəlxalq Elmi Konfrans keçirildi

Bakıda Ümumdünya Piylənmə ilə Mübarizə Gününə həsr olunmuş Beynəlxalq Elmi Konfrans keçirildi. Konfrans Səhiyyə Nazirliyinin dəstəyi, İSİM, Nutrisiologiya, dietologiya və piylənmənin profilaktikası Akademiyası və Bariatrik Metabolik Cərrahlar Assosiasiyasının birgə əməkdaşlığı ilə baş tutdu.




5 mart 2022-ci il



Konfrans Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən akkreditə olunmuşdu və həmçinin, Beynəlxalq Bariatrik Cərrahlar və Metabolik Xəstəliklər Federasiyası (IFSO) tərəfindən təsdiq edilmişdi.

## Gənc nəslin sağlam inkişafı üçün maarifləndirici tədbirlər təşkil olundu

Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə əməkdaşlığı ilə təhsil müəssisələrində yeniyetmə və gənclərin sağlam inkişafı, sağlam həyat tərzi, reproduktiv sağlamlığın qorunması və s. mövzulara dair biliklərinin artırılması məqsədilə il ərzində müntəzəm olaraq maarifləndirmə tədbirləri təşkil edildi.




14 mart 2022-ci il
*Lənkəran Peşə Liseyi*




1 mart 2022-ci il
*Astara Pedaqoji Kolleci*



21 aprel 2022-ci il
*Bərdə Peşə Liseyi*



15 aprel 2022-ci il
*İsmayıllı Peşə Təhsil Mərkəzi*



13 iyun 2022-ci il
*Sabirabad rayon Heydər Əliyev Mərkəzi*

## İSİM-də “Sağlam davranış nəzəriyyələri və qeyri-infeksion xəstəliklərin profilaktikası” mövzusunda konfrans keçirildi

İSİM-in direktor müavini Rahib Məmmədov giriş sözü ilə çıxış edərək bildirdi ki, ÜST-nin qeyri-infeksion xəstəliklərin vəziyyəti üzrə sonuncu hesabatına görə, dünyada 41 milyon insan məhz bu xəstəliklərdən vəfat edib. Bu, qeydə alınan bütün ölüm hallarının 71%-i deməkdir. Konfransda vurğulandı ki, qeyri-infeksion xəstəliklərin qarşısını almaq üçün əhali arasında sağlam davranışın formalaşdırılması və təşviqi ən səmərəli strategiyadır.

Qeyd edək ki, konfrans Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurası tərəfindən akkreditasiya olunmuş və 6 DTT kredit balı ilə qiymətləndirilmişdi.





28-29 aprel 2022-ci il

## İlk tibbi yardımın göstərilməsi üzrə təlimlər maraqla qarşılandı

**Təhsil Nazirliyi ilə əməkdaşlıq çərçivəsində İSİM mütəxəssisləri tərəfindən təhsil müəssisələrinin kollektivi və məktəblinin dostlarına ilk tibbi yardımın göstərilməsi üzrə 10 təlim keçirildi.**

Təlimlərin əsas məqsədi iştirakçıların ilk tibbi yardımın göstərilməsi istiqamətində nəzəri və praktiki biliklərini artırmaq idi.



1 mart 2022-ci il







## "Fiziki aktivlik və sağlam qidalanma" mövzusunda maarifləndirici tədbir oldu

İSİM, Bakı şəhər Gənclər və İdman Baş İdarəsi və Sabunçu rayon Gənclər və İdman İdarəsinin birgə əməkdaşlığı ilə Əlilliyi olan şəxslərin Peşə-Əmək Reabilitasiyası Mərkəzində sağlam həyat tərzi, fiziki aktivlik mövzusunda maarifləndirmə tədbiri təşkil olundu. İSİM-in əməkdaşı Gülnarə Cəfərova çıxış edərək, sağlam həyat tərzi keçirməyin və fiziki aktiv olmağın əhəmiyyəti barədə ətraflı məlumat verdi.



6 aprel 2022-ci il



Tədbirdə iştirakçıları maraqlandıran suallar cavablandırıldı və sağlam həyat tərzinə dair faydalı tövsiyələr nəzərə çatdırıldı.

# Orta məktəblərdə maarifləndirici tədbirlər keçirildi

9 iyun 2022-ci il
*Bakı şəhəri,*
*42 saylı orta məktəb*



6 may 2022-ci il
*10 nömrəli*
*sanatoriya tipli*
*orta məktəb*



27 oktyabr 2022-ci il
*Bakı şəhəri 42 nomrəli*
*tam orta məktəb*



31 oktyabr 2022-ci il
*Bakı şəhəri 267 nömrəli*
*tam orta məktəb*



**Zərərli vərdişlərin qarşısının alınması və gənc nəslin sağlam böyüməsi məqsədilə respublika üzrə orta ümumtəhsil müəssisələrində İSİM tərəfindən il ərzində mütəmadi olaraq tədbirlər keçirildi, iştirakçılara maarifləndirici materiallar təqdim olundu.**

22 noyabr 2022-ci il
*Bakı Slavyan Universiteti*
*nəzdində məktəb-lisey*
*kompleksi*



3 noyabr 2022-ci il
*Bakı şəhəri 32 nömrəli*
*tam orta məktəb*



# "Neonatologiyanın müasir aspektləri" mövzusunda elmi-praktik konfrans təşkil edildi

İSİM tərəfindən keçirilən konfransda ana və uşaqların sağlamlıqlarının yaxşılaşdırılması istiqamətində çıxışlar oldu. Həkim-neonatoloqlar və pediatrların iştirakı ilə keçən konfransda yenidoğulanlar arasında skrininqin aparılması, yenidoğulmuşlarda sarılıq, yenidoğulmuşlarda yanlış qoyulan diaqnozlar kimi neonatologiyanın aktual mövzuları barədə geniş təqdimatlar olundu, səmərəli fikir mübadiləsi aparıldı.



1 mart 2022-ci il

Qeyd edək ki, konfrans Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurası tərəfindən akkreditasiya olunmuş və 5 DTT kredit balı ilə qiymətləndirilmişdi.

# Siyəzəndə "Hər günün tütünsüz olsun!" mövzusunda dəyirmi masa və aksiya keçirildi

İSİM və Siyəzən Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində Siyəzən rayon ictimaiyyətinin, gənclərin iştirakı ilə "Hər günün tütünsüz olsun!" mövzusunda dəyirmi masa keçirildi. Dəyirmi masa iştirakçıları çıxış edərək, maarifləndirici tədbirlərin əhəmiyyətini vurğuladılar, tütünçəkmənin sağlamlığa zərərlərindən söz açdılar, şəxsi təcrübələrini bölüşərək yeni nəsli zərərli vərdişlərdən uzaq olmağa səslədilər.




25 may 2022-ci il




26 may 2022-ci il

## Narkomaniyaya yox deyək!



25 may 2022-ci il



İSİM tərəfindən Sabunçu Gənclər Evində "Narkomaniyaya yox deyək!" mövzusunda maarifləndirici tədbir keçirildi. Tədbirin təşkilində əsas məqsəd gəncləri sağlam həyat tərzi keçirməyə çağırmaq, narkomaniya kimi zərərli vərdişlərin fəsadları barədə onları məlumatlandırmaq idi.

İSİM-in Layihələrin əlaqələndirilməsi şöbəsinin müdir müavini Ülkər Camalova çıxış edərək, narkomaniyanın və psixotrop maddələrin insan sağlamlığına mənfi təsiri barədə ətraflı məlumat verdi.

## "Uşaqların doğulanadək cins seçiminə qarşı mübarizə" mövzusunda tədbir oldu




Səhiyyə Nazirliyi ilə Ailə,Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə əməkdaşlığı ilə Siyəzən Rayon Heydər Əliyev Mərkəzində "Uşaqların doğulanadək cins seçiminə qarşı mübarizə" mövzusunda tədbir keçirildi.

İSİM-in həkim-metodisti Zümrüd Kazımova mövzu üzrə təqdimatla çıxış edərək, hamiləliyin süni surətdə pozulmasının qadınların reproduktiv sağlamlığına və psixoloji durumuna göstərdiyi mənfi təsirindən söz açdı.

# İSİM-də 31 may – Ümumdünya Tütünsüz Günü qeyd olundu

Dünyanın müxtəlif ölkələrində 1988-ci ildən bəri qeyd olunan bu günlə bağlı müxtəlif maarifləndirmə tədbirləri təşkil olunur, sağlam həyat tərzi istiqamətində geniş təbliğat aparılır.

İSİM-in direktoru Qəhrəman Haqverdiyev çıxış edərək bildirdi ki, Mərkəz tərəfindən tütünlə mübarizəyə həsr olunmuş iki internet saytı və üç mobil proqram hazırlanıb – ikisi əhali üçün, digəri isə həkimlər üçün. Vurğulandı ki, “Tütündən imtina et” mobil tətbiqi çox populyardır – artıq 10 mindən çox insan onu yükləyib.



31 may 2022-ci il








Əhali arasında maarifləndirməyə verdiyi töhfəyə görə İdman TV-yə, “Siqaretə yox!” və “Sport 103” proqramlarının müəllif və aparıcısı Toğrul Səfərova “Təşəkkürnamə” təqdim olundu.

# İSİM-in nümayəndəsi Qlobal Sülh Sammitində çıxış etdi

Bakıda Qlobal Sülh Zənciri təşkilatı tərəfindən təşkil olunan Qlobal Sülh Sammiti keçirildi.

Dünyanın 35-dən çox ölkəsindən Bakıya toplanmış gənclər dünyada olan qlobal problemləri, müharibədən sonra yaranan sülh imkanları və şəxsi sülh təşəbbüsləri barədə fikirlərini bildirdilər, panel diskussiyalarda iştirak etdilər.




29 may - 1 iyun 2022-ci il



İSİM-in nümayəndəsi Aysel Məmmədzadə sammitdə geniş təqdimatla çıxış etdi. A.Məmmədzadənin təqdimatı, səhiyyə işçiləri və ictimai səhiyyə mütəxəssisləri tərəfindən ölkəmizdə həyata keçirilən maarifləndirici tədbirlər barədə məlumatı iştirakçılar tərəfindən maraqla qarşılandı.

## “Antenatal və uşaq baxımı xidmətlərinə kişilərin cəlb edilməsi üzrə işin təşkili” mövzusunda konfrans keçirildi

İSİM-də keçirilən konfransda vurğulandı ki, Avropa İttifaqının dəstəyi ilə, BMT-nin Əhali Fondu və BMT-nin Qadınlar üzrə Agentliyinin birgə həyata keçirdiyi “Avropa İttifaqı Gender Bərabərliyi naminə: Gender stereotipləri və gender əsaslı zorakılığa qarşı” proqramı çərçivəsində icra edilən “Hamiləlik və doğuş zamanı kişilərlə işin təşkili” layihəsi öz fəaliyyətini başa vurub. Layihə İSİM, Azərbaycan Tibb Universiteti (ATU) və Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu (ADHTİ) ilə sıx əməkdaşlıq şəraitində “Ümidli Gələcək” Sosial Təşəbbüslər İctimai Birliyi (STİB) tərəfindən həyata keçirilib. Layihənin əsas məqsədi ana və uşaq sağlamlığı ilə məşğul olan ailə həkimləri, mama-ginekoloqlar, mamalar, neonatoloq və pediatrlar tərəfindən hamiləlik, doğuş və uşağa qayğı prosesində analarla yanaşı ataların da iştirakının təşviq edilməsi və onların geniş sanitar-maarifləndirmə işinə cəlb edilməsindən ibarət olub.





30 iyun 2022-ci il

## Səhiyyə işçiləri arasında vaksinlərin effektivliyinin öyrənilməsi üzrə tədqiqat aparıldı



Ölkəmizdə səhiyyə işçiləri arasında COVID-19 infeksiyası əleyhinə vaksinasiyanın effektivliyinin dəyərləndirilməsi üzrə tədqiqatın II mərhələsi aparılır. Bu genişmiqyaslı araşdırma Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və ÜST-nin, ABŞ-ın İnfeksiyalara Nəzarət Mərkəzinin (CDC) dəstəyi ilə İSİM tərəfindən həyata keçirilir.

Qeyd edək ki, 2021-ci ilin aprel ayından etibarən ölkəmizdə 1500 tibb işçisinin (həm həkimlər və orta tibb personalı, həm də xəstəxanaların inzibati və texniki əməkdaşları) iştirakı ilə COVID-19 xəstəliyinə qarşı vaksinlərin effektivliyinin öyrənilməsinə başlanıb.

Tədqiqat bir neçə Avropa ölkəsində eyni vaxtda həyata keçirilir. Tədqiqatın bu mərhələsində, infeksiyanı təbii keçirmiş və 2, 3 və hətta 4 doza vaksinasiyadan sonra immunitetin nə qədər qalıcı və güclü olduğunu müəyyən etmək nəzərdə tutulub. Həmçinin payız və qış aylarında COVID-19 ilə yanaşı, qrip infeksiyası hallarının artma potensialını və iki infeksiyaya məruz qalan şəxslərin daha ağır xəstəlik keçirməsi ehtimalını nəzərə alaraq, tədqiqatın ikinci mərhələsində qrip virusunun yayılması və başvermə tezliyi də öyrənilir.

## Daşkəsəndə tütünçəkmə və narkomaniyaya qarşı maarifləndirici tədbir və təşviqat aksiyası oldu

İSİM, Daşkəsən Rayon İcra Hakimiyyəti və Daşkəsən Rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə tədbir və əhali üçün maarifləndirici təşviqat aksiyası keçirildi. Yerli sakinlərin və gənclərin fəal iştirak etdiyi aksiyanın məqsədi tütünçəkmə və narkomaniya ilə mübarizə sahəsində maarifləndirmə işinin gücləndirilməsi idi. İştirakçılara tütünçəkmənin fəsadları barədə məlumat verildi, onlara ÜST-nin ölkə ofisinin dəstəyi ilə İSİM tərəfindən yaradılan “Tütündən imtina et” mobil tətbiqindən və tütündən imtina üzrə “Qaynar xətt”dən faydalanmaq tövsiyə olundu.



17 iyun 2022-ci il



20 iyun 2022-ci il




## "Ginekoloji və reproduktiv təbabətin problemləri" adlı elmi-praktik konfrans keçirildi

İSİM və "Organization of Medical Projects" (OMP) şirkətinin birgə əməkdaşlığı ilə "Fetal anomaliyalar" və "Ginekoloji və reproduktiv təbabətin problemləri" adlı elmi-praktik tibbi konfrans təşkil olundu. Konfransda ginekoloqlar, radioloqlar və digər sahələrdən həkimlər iştirak etdilər.





7-8 may 2022 -ci il

İsrailin və Şiba Tibb Mərkəzinin mütəxəssislərinin, eləcə də Türkiyə Maternal Fetal Tibb və Perinatoloji Dərnək üzvlərinin və Azərbaycanın aparıcı mütəxəssislərinin iştirakı ilə keçirilən konfransda ginekoloji və reproduktiv təbabətin aktual problemləri ilə bağlı səmərəli fikir mübadiləsi aparıldı.

## Şəkidə "Ginekoloji və pediatrik problemlərə multidissiplinar yanaşma" mövzusunda regional konfrans keçirildi

İSİM tərəfindən təşkil olunan konfransda Şəki, Zaqatala, Balakən, Qəbələ, Mingəçevir, Ağdaş, Göyçay və İsmayıllıda çalışan həkim mama-ginekoloq, pediatr, neonatoloq və ailə həkimləri iştirak etdilər.

İştirakçılara neonatal multisistem inflamator sindrom, PAS (Placenta accreta spektrum) və qeysəriyyə çapığının digər fəsadları, yenidoğulmuşlarda sarılıqlarda izləm, yuvenil qanaxmalar, diafraqma yırtığı olan yenidoğulmuşlara yanaşma və digər aktual mövzularda ətraflı məlumat verildi, suallar cavablandırıldı.



3 iyun 2022-ci il



**Konfrans Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurası tərəfindən akkreditasiya olunmuş və 6 DTT kredit balı ilə qiymətləndirilmişdi.**

## "Səhiyyədə ictimai iştirakçılıq təşəbbüslərinin təbliği: ictimai şuraların rolu" mövzusunda görüş oldu



20 iyul 2022-ci il



Səhiyyə Nazirliyi, İSİM və "İnkişafa Doğru Qadın Təşəbbüsü" İB-nin birgə əməkdaşlığı ilə "Səhiyyədə ictimai iştirakçılıq təşəbbüslərinin təbliği: ictimai şuraların rolu" mövzusunda görüş keçirildi. Səhiyyə nazirinin müavini Nadir Zeynalov çıxış edərək bildirdi ki, ictimai iştrakçılıq qanunla tənzimlənən qaydalara əsaslanır və kommunikasiya əlaqələrinə söykənir. Ona görə ictimaiyyətlə kommunikasiya əlaqələrinin qurulması dövlət qurumlarının işinə həm kömək, həm də dəstəkdir.

Görüşdə səmərəli fikir mübadiləsi aparıldı, vətəndaş cəmiyyəti nümayəndələrinin təklifləri dinlənildi və verilən suallar cavablandırıldı.

## İş yerlərində sağlam həyat tərzi təbliğ olundu

İSİM tərəfindən “AZ FP CO LTD” Məhdud Məsuliyyətli Cəmiyyətinin kollektivinin iştirakı ilə “Zərərli vərdişlərə yox deyək” mövzusunda maarifləndirici tədbir və təşviqat aksiyası keçirildi.

Aksiyada “Mən siqaret çəkmirəm! Sən də çəkmə!” selfi generatorundan istifadə etməklə fotoşəkillər çəkildi, İSİM tərəfindən hazırlanaraq nəşr edilən maarifləndirici materiallar paylanıldı.



8 iyul 2022-ci il



**Bildirildi ki, zərərli vərdişlər yalnız sağlamlığa deyil, həm də inkişafa, fəaliyyətə, yaradıcılığa, ətraf mühitə mənfi təsir göstərir.**



## Lənkəranda pediatrik reanimasiyaya dəstək məqsədilə təlim keçirildi

Lənkəran Perinatal Mərkəzin həkimləri, o cümlədən pediatrlar və neonatoloqların iştirak etdiyi təlim İSİM-in həkim-metodisti Könül İsmayılova tərəfindən aparıldı. İki gün davam edən təlimdə pediatrik təcili yardımın əsasları ilə bağlı həm nəzəri, həm də praktik bacarıqlar öyrədildi.



20 iyul 2022-ci il



27 iyul 2022-ci il

## Şəkidə pediatrik reanimasiyaya dəstək məqsədilə təlim oldu

Təlimdə Zaqatala, Balakən və digər qonşu bölgələrin ixtisas həkimləri, eyni zamanda, neonatoloqlar iştirak etdilər.

**TƏLİMLƏR 2022**

**PALS** 190 həkim və tibb bacısı;

**ACLS** 90 həkim;

**BLS** 180 həkim və 130 qeyri-tibb işçisi;

**ITLS** 27 həkim.

## Şuşa şəhərində tibbi konfrans oldu




30 iyul 2022-ci il

Səhiyyə Nazirliyi, İSİM, TƏBİB, "Referans Medical Group" və "Uptodate in Medicine"nin təşkilatçılığı ilə Şuşa şəhərində “Dağ-səhra şəraitində xəstələrin təxliyəsi və təcili cərrahiyyəsi" adlı tibbi konfrans keçirildi. Konfransda bu qələbənin əldə olunmasında ilk gündən əsgərlərimizlə birgə ön cəbhədə xidmət göstərmiş həkimlərin, peşəkar tibb işçilərinin mühüm rolu olduğu qeyd olundu.

Konfransda ilk tibbi yardım metodlarından yararlanaraq zədələnmənin mexanizminin təyin edilməsi, texnogen fəlakətlər zamanı xəstəxanaya qədər ilk tibbi yardımın xüsusiyyətləri kimi aktual mövzular müzakirə edildi.

## İSİM tərəfindən hazırlanaraq nəşr edilən maarifləndirici materiallar Gəncə sakinlərinə paylanıldı





10-20 iyul 2022-ci il

İlk yardım, ana südü ilə qidalandırmanın üstünlükləri, gözlərə qulluq, yeniyetmələr arasında sui-qəsd hallarının qarşısının alınması və s. mövzular üzrə maarifləndirici materiallar sakinlərə paylanıldı, onlara sağlamlığın qorunması istiqamətində tövsiyələr verildi.



9-10 avqust 2022-ci il

## Şuşada “İlk yardım” üzrə təlimlər keçirildi

Axtarış və xilasetmə proqramı çərçivəsində, İSİM və "Uptodate İn Medicine" AHA Beynəlxalq Təlim Mərkəzinin təlimçiləri tərəfindən 150 skaut üçün ümumi ilk yardım, ürək-ağciyər reanimasiyası, defibrilyatordan istifadə və travmalarda xəstəxanayaqədər ilk yardım təlimləri keçirildi.



# 29 sentyabr – Ümumdünya Ürək Gününə həsr olunmuş aksiya keçirildi

Aksiya İSİM, Azərbaycan Tibb Universitetinin təşkilatçılığı, "Marsol" MMC və "Özsüt" restoranlar şəbəkəsinin əməkdaşlığı ilə Qış parkında keçirildi. Aksiyada iştirakçılar ilkin müayinələrə (boy, çəki, təzyiq və nəbzin ölçülməsi, EKQ müayinə) dəvət edildilər, onlara həkim və kardioloqlar, ictimai səhiyyə mütəxəssisləri tərəfindən tövsiyələr verildi.

Aksiyada "Sağlam qida" guşəsi təqdim olundu, iştirakçılara düzgün və balanslı qidalanma ilə bağlı məlumat verildi, tütünçəkmə və digər zərərli vərdişlərdən uzaq olmaq, sağlam həyat tərzi seçmək təşviq edildi, bu mövzulara dair maarifləndirici materiallar paylanıldı.







29 sentyabr 2022-ci il



# Səhiyyə islahatlarında səhiyyə texnologiyalarının qiymətləndirilməsi üzrə I Beynəlxalq Konfrans oldu

Səhiyyə Nazirliyi, İSİM, ATU, Səhiyyə Texnologiyalarının Qiymətləndirilməsi Beynəlxalq Təşkilatının birgə əməkdaşlığı ilə keçirilən konfransın təşkilində əsas məqsəd region ölkələrin səhiyyə sistemini qabaqcıl, dünya təcrübəsinə əsaslanan texnologiyalarla tanış etmək və onun inkişaf etdirilməsinə töhfələr vermək idi.

Səhiyyə nazirinin müavini Nadir Zeynalov açılış nitqi ilə çıxış edərək, müasir dövrdə tibb elminin və tibbi texnologiyaların çox sürətlə inkişaf etdiyini bildirdi və ölkəmizdə bu istiqamətdə görülən işlərin əhəmiyyətini vurğuladı.





19 oktyabr 2022-ci il

**ABŞ, Türkiyə, Polşa, Ukrayna, Niderland, Qazaxıstan, Qırğızıstan və Özbəkistan nümayəndələrinin iştirakı ilə keçən konfransda səhiyyə texnologiyalarının səhiyyə xismətləri ilə əlaqəsi, hər kəs üçün əlçatan, bərabər olan səhiyyə prespektivləri və bölgədə səhiyyə texnologiyalarının inkişafı ilə bağlı əməkdaşlığı genişləndirmək istiqamətində səmərəli fikir mübadiləsi aparıldı.**

## “Tütünçəkmə sağlamlığa təhlükədir” mövzusunda maarifləndirici tədbir oldu

İSİM tərəfindən “Üçüncü bahar” İctimai Birliyi ilə əməkdaşlıq çərçivəsində təşkil olunan tədbirin məqsədi ahıl yaşlı insanlar arasında sağlam həyat tərzini təbliğ etmək, tütünçəkmə və digər zərərli vərdişlərin sağlamlığa təhlükəli təsirlərindən söz açmaq idi.



3 noyabr 2022-ci il

## II Beynəlxalq Laboratoriya Təbabəti Konfransı keçirildi




25-26 noyabr 2022-ci il

İSİM və ATU-nun təşkilatı, “Uptodate in Medicine” Təşkilatının texniki dəstəyi ilə Azərbaycan Klinik Laboratoriya Mütəxəssisləri İctimai Birliyinin II Beynəlxalq Laboratoriya Təbabəti Konfransı keçirildi.

Konfransın keçirilməsində məqsəd klinik laboratoriya mütəxəssislərinin bilik və bacarıqlarının təkmilləşdirilməsi, bu sahədə müasir yeniliklər barədə ətraflı məlumat təqdim etmək idi.

## Şamaxıda 14 noyabr – Ümumdünya Diabetlə Mübarizə Gününə həsr olunmuş aksiyada yerli sakinlər müayinə edildi

İSİM, Azərbaycan Kardiologiya Cəmiyyəti və “Üçüncü bahar” İctimai Birliyinin əməkdaşlığı ilə təşkil olunan aksiyada iştirakçılar ilkin müayinələrə (boy, çəki, təzyiq və nəbzin ölçülməsi, qanda şəkərin səviyyəsinin müəyyən olunması) dəvət edildilər, onlara həkim və kardioloq, ictimai səhiyyə mütəxəssisləri tərəfindən tövsiyələr verildi.






14 noyabr 2022-ci il

İSİM-in nümayəndələri – Laura Quliyeva, Sevda Məmmədova və Pərvin Quliyeva, Azərbaycan Kardiologiya Cəmiyyətinin nümayəndəsi Hikmət Əliyev aksiya iştirakçılarına qeyri-infeksion xəstəliklərin, o cümlədən diabetin əsas risk amilləri barədə məlumat verdilər.

İştirakçılara düzgün və balanslı qidalanma ilə bağlı məlumat verildi, tütünçəkmə və digər zərərli vərdişlərdən uzaq olmaq, sağlam həyat tərzi seçmək təşviq edildi, bu mövzulara dair İSİM tərəfindən hazırlanaraq nəşr edilən maarifləndirici materiallar paylanıldı.

# İSİM-də klinik protokollara dair təlimlər keçirildi



15-16 noyabr 2022-ci il



İSİM-də keçirilən ikigünlük təlimlərin məqsədi sübutlara əsaslanan klinik protokolları Azərbaycan Tibb Universitetinin və Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitunun müvafiq kafedralarının tədris proqramlarına, həmçinin, rezidentura və davamlı tibbi təhsil proqramlarına daxil etmək, peşəkar tibb assosiasiyalarının fəaliyyətini gücləndirmək idi.

İSİM-in Tibbi keyfiyyət standartları şöbəsinin müdiri Şəhla İsmayılova geniş təqdimatlarla çıxış edərək iştrakçılara klinik protokolların tərtibatı, təsnifatı barədə ətraflı məlumat verdi.

# Ümumdünya Antibiotikdən Düzgün İstifadə Həftəsinə həsr olunmuş interaktiv tədbirdə tələbələr fəal iştirak etdi

İSİM və ATU-nun təşkilatçılığı, ÜST-nin dəstəyi ilə "Antibiotiklərdən sui-istifadəyə yox deyək!" mövzusunda keçirilən interaktiv tədbirin məqsədi antibiotiklərdən lazımi şəkildə istifadə etməklə onların effektivliyinin qorunub saxlanması istiqamətində maarifləndirilmənin aparılması idi.



24 noyabr 2022-ci il

# 1 dekabr - Ümumdünya QİÇS-lə Mübarizə Gününə həsr olunmuş tədbir keçirildi

İSİM, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi, Sabunçu rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Sabunçu rayon Gənclər Evində "Gənclərin sağlam həyat tərzi (narkomaniya, tütün, alkoqol və digər psixoaktiv maddələrin mənfi təsiri, infeksion və qeyri-infeksion xəstəliklərin profilaktikası, sağlam qidalanma)" mövzusunda maarifləndirici tədbir keçirildi.



1 dekabr 2022-ci il

Tədbirdə gəncləri maraqlandıran suallar cavablandırıldı, o cümlədən İSİM tərəfindən hazırlanmış narkomaniya, tütün, alkoqol və digər psixoaktiv maddələrin mənfi təsirləri və fəsadlarını əks etdirən maarifləndirici materiallar iştirakçılara paylanıldı.

# “İİV infeksiyası və QİÇS xəstəliyinin ana və uşaqların sağlamlığına təsiri” mövzusunda elmi-tibbi konfrans keçirildi

Konfrans BMT-nin Əhali Fondu, Səhiyyə Nazirliyinin Respublika QİÇS-lə Mübarizə Mərkəzi, İSİM və Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun birgə təşkilatçılığı ilə baş tutdu.
Konfransda Azərbaycanda və dünyada İİV/QİÇS-lə bağlı cari vəziyyət, xəstəliyin diaqnostikası, gedişatı və müalicə prinsipləri, İİV-ə yoluxmuş qadınlarda mamalıq-ginekoloji patologiyalar və s. mövzular ətrafında təqdimatlar edilib, iştirakçıların sualları cavablandırılıb.

Tədbir 1 dekabr – Ümumdünya QİÇS-lə Mübarizə Gününə həsr olunmuş fəaliyyətlər çərçivəsində baş tutub.



5 dekabr 2022-ci il

# Lənkəran Tibb kollecində təlim oldu

Ana ölümlərinin qarşısının alınmasına töhfə vermək məqsədilə BMT-nin Əhali Fondunun dəstəyi ilə Lənkəran rayonunda həyata keçirilən “Azərbaycanın cənub bölgəsində təhlükəsiz analıq” pilot layihəsinin icrası çərçivəsində Lənkəran Tibb kollecində tibb bacısı / qardaşı istiqaməti üzrə təhsil alan tələbələr üçün təlim sessiyası keçirildi.



6 dekabr 2022-ci il

“Azərbaycanın cənub bölgəsində təhlükəsiz analıq” layihəsinin tərəfdaşları qismində BMT-nin Əhali Fondu, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, TƏBİB, Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu, İSİM və Respublika QİÇS-lə Mübarizə Mərkəzi çıxış edirlər.



# Azərbaycanda uşaqlar arasında artıq çəki və piylənmənin risk amillərinin öyrənilməsinə dair tədqiqatın illik hesabatı ilə bağlı dəyirmi masa keçirildi

İSİM-də ÜST-nin Avropa üzrə Regional Ofisinin Uşaqlarda Piylənməyə Nəzarət Təşəbbüsü (COSI) tədqiqatı respublika üzrə 128 məktəbdən 4820 nəfər arasında aparılıb. Tədqiqatda iştirak təklifi almış uşaqların 99,2 faizi iştirak edib ki, onlardan 2827 nəfəri 8 yaş təşkil edib.
Dəyirmi masada tədqiqatın gedişatı ilə bağlı ilkin (texniki) hesabat dinlənildi və müzakirə edildi.



7 dekabr 2022-ci il

## İSİM tərəfindən aparılan "Azərbaycanda özəl tibb fəaliyyəti üzrə sorğu"nun yekun nəticələri ilə bağlı dəyirmi masa oldu

İSİM-in direktoru Qəhrəman Haqverdiyev 2021-ci ilin sonu 2022-ci ilin əvvəli ölkəmizdə özəl tibb müəssisələri arasında aparılan bu sorğunun səhiyyə sektorunun inkişafındakı aktual məsələlərə, o cümlədən problemlərə nəzər salan ilk irimiqyaslı sorğu olduğunu bildirdi.



17 dekabr 2022-ci il

Qeyd edildi ki, cəmi 108 sualın (o cümlədən İSİM ilə əməkdaşlıq haqqında 16 sual) yer aldığı sorğuya respublika üzrə fəaliyyət göstərən 61 özəl tibb müəssisəsi cəlb olundu və suallar müəssisə rəhbərləri tərəfindən cavablandırıldı. Sorğuya cəlb olunan tibb müəssisələrinin seçimi təsadüfi idi, sorğudan imtina nisbəti 3-5 faiz qeydə alındı.

## Azərbaycanda əhali arasında sağlamlıq savadlılığının öyrənilməsinə dair sorğunun nəticələri müzakirə edildi



16 dekabr 2022-ci il

İSİM-də "Azərbaycanda əhali arasında sağlamlıq savadlılığının öyrənilməsinə dair sorğu"nun yekun nəticələrinə həsr edilmiş dəyirmi masa oldu. İSİM-in Səhiyyə texnologiyaları və teletəbabət şöbəsinin müdiri Samir Mehdiyev sorğunun nəticələri ilə bildirdi ki, tədqiqatda min nəfər respondent iştrak edib və hər biri 27 suala cavab verib. Nəticələrə əsasən, iştrakçıların 18,9 faizi ümumi sağlamlıq məlumatlarının qavranılması və təhlilində çətinlik çəkmədiklərini qeyd edib.

## İSİM-də Azərbaycan Tibb Universitetinin Səhiyyə menecmenti fakültəsinin magistr pilləsində təhsil alan tələbələri ilə görüş oldu



12 dekabr 2022-ci il

Görüşün məqsədi tələbələri ölkəmizdə ictimai səhiyyə və əhalinin tibbi maarifləndirilməsi istiqamətində görülən işlərlə bağlı ətraflı məlumatlandırmaq idi.





# KLİNİK PROTOKOLLAR, METODİK TÖVSİYƏLƏR

Səhiyyə Nazirliyinin 2021-ci ildə "Klinik protokolların yenilənməsi haqqında" əmrinə əsasən hazırlanan və sübutlu təbabətin tələblərinə cavab verən yeni **klinik protokolların elektron variantları İSİM-in saytına (https://www.isim.az/az/reports/5) əlavə edildi.** İSİM tərəfindən 2008-2015-ci illər ərzində hazırlanaraq çap edilən və sayta yerləşdirilən 91 klinik protokoldan artıq 54-ü yenilənib və Elmi-Tibbi Şura tərəfindən təsdiq edilib.



Klinik protokollar hər hansı nozologiya və ya sindrom zamanı düzgün yardım göstərilməsi ilə bağlı qərar qəbul etməkdə həkimə kömək edən tövsiyələr toplusudur. Klinik protokolların tərtib edilməsində məqsəd ən son elmi tədqiqatların nəticələrini gündəlik praktikaya tətbiq etmək, tibb işçilərini pasiyentə rasional yardım göstərməkdə kömək edəcək vəsaitlə təmin etmək və tibbi xidmət göstərilməsində yüksək standartlara nail olmaqdır. Klinik protokolların səmərəli olmasını təmin edən əsas cəhət, onların tərtib edilməsinin sübutlu təbabət prinsiplərinə əsaslanmasıdır.

Klinik protokolların tərtib olunması Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 24 noyabr 2008-ci il tarixli 160 saylı əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında klinik protokolların tərtib edilmə Qaydaları" əsasında həyata keçirilir.




## Meymunçiçəyi xəstəliyinin diaqnostika və müalicəsi üzrən klinik protokol hazırlandı

İSİM tərəfindən hazırlanan və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tibbi Şurasının 14 iyun 2022-ci il tarixli 12 nömrəli qərarı ilə təsdiq edilən bu protokol ilkin səhiyyə xidmətində çalışan terapevtlər, pediatrlar, ailə həkimləri, təcili tibbi yardım həkimləri, həmçinin yoluxucu və dəri-zöhrəvi xəstəliklər üzrə mütəxəssislər üçün nəzərdə tutulub.

Protokolun tərtibatında İSİM-in, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin Strateji inkişaf departamentinin, Azərbaycan Tibb Universitetinin İnfeksion xəstəliklər kafedrasının mütəxəssisləri iştrak ediblər.

**Klinik protokollar İSİM-in saytında Təlimatlar bölümündə yerləşdirilib.**
**www.isim.az/az/reports/5**

# İSİM TƏRƏFİNDƏN YARADILARAQ ƏHALİNİN İSTİFADƏSİNƏ VERİLƏN MOBİL TƏTBİQLƏR




## "Şəkərli diabet" mobil tətbiqi

Mobil əlavənin yaradılmasında əsas məqsəd şəkərli diabet xəstəliyinin profilaktikası, müalicəsi və qanda şəkərin səviyyəsinin nəzarətdə saxlanılmasına dair əhalinin maarifləndirilməsidir.

Proqramdan həm şəkərli diabet xəstələri, həm də qida rasionuna və karbohidrat metabolizminə diqqət yetirən şəxslər istifadə edə bilərlər.

## "İlk yardım" mobil tətbiqini yükləyin, fövqəladə hallara hazır olun

Mobil tətbiq gündəlik fövqəladə hallara cavab verməyə kömək edir və tövsiyələr verir.







## “Sağlam qida” mobil əlavəsini yükləyin, qəbul edilən kalori miqdarına nəzarət edin

Gün ərzində sağlam qidalandığınızı və gündə neçə kalori qəbul etdiyinizi bilmək istəyirsiniz? Onda bu mobil əlavə əsl sizin üçündür.
Təlimat OFFLINE rejimində işləyir və işləmək üçün internet bağlantısı tələb olunmur.

## Tütündən imtina etmək istəyirsiniz?

Bu mobil tətbiq əsl sizin üçündür. Onu yükləyin, zərərli vərdişlə mübarizədə uğurlu nəticə əldə edin.




**Daha ətraflı: https://isim.az/az/pages/46-Mobil-elaveler**

## İSİM-də ÜST-nin Avropa Regional Ofisi və ABŞ-ın İnfeksiyalara Nəzarət Mərkəzinin (CDC) nümayəndələri ilə görüş oldu

Görüşdə "COVID-19 xəstəliyinə qarşı peyvəndin effektivliyinin dəyərləndirilməsi" üzrə ölkəmizdə keçirilən tədqiqatla bağlı fikir mübadiləsi aparıldı, layihə iştirakçıları ilə əldə edilən nəticələr müzakirə olundu.

Qeyd edək ki, 2021-ci ilin aprel ayından aparılan araşdırmanın ilkin mərhələsinin nəticələri nüfuzlu "Qrip və digər respirator viruslar" jurnalında dərc edilib. Əldə olunan nəticələri nəzərə alaraq, ÜST və ABŞ-ın İnfeksiyalara Nəzarət Mərkəzi Qlobal Səhiyyə üçün İşçi Qrupunun dəstəyi ilə bu önəmli tədqiqat əlavə 1.5 ilə uzadılıb. Eyni zamanda, tədqiqatın məqsədləri genişləndirilərək SARS-CoV-2 ilə yanaşı, qrip virusunun epidemiologiyası və ona qarşı vaksinasiyanın effektivliyinin öyrənilməsi də əlavə edilib.



28 noyabr 2022-ci il



## İSİM ilə Azərbaycan Kardiologiya Cəmiyyəti arasında Anlaşma Memorandumu imzalandı



30 mart 2022-ci il

İSİM ilə Azərbaycan Kardiologiya Cəmiyyəti İctimai Birliyi (AKCİB) arasında Anlaşma Memorandumu imzalandı. Memorandum "İctimai Səhiyyə və İslahatlar Mərkəzi" publik hüquqi şəxsin baş direktoru Qəhrəman Haqverdiyev və AKCİB-in sədri Üzeyir Rəhimov tərəfindən imzalandı. Tərəflər əməkdaşlıq edərək, Azərbaycanda kardiologiya üzrə praktik təbabət sahəsində istifadə olunacaq klinik protokolların hazırlanması, o cümlədən həkim, rezidentlər və orta tibb işçilərinin bilik və bacarıqlarının artırılması məqsədilə müxtəlif mövzularda birgə tibbi elmi-praktiki konfrans və təlimlərin, tədbirlərin təşkilini planlaşdırırlar.

## İSİM-in nümayəndələri Bişkek şəhərində qeyri-infeksion xəstəliklərin profilaktikası üzrə keçirilən tədbirdə iştirak etdilər

ÜST Avropa Regional Bürosu tərəfindən Bişkek şəhərində piylənməyə nəzarət, qidalanma, qeyri-infeksion xəstəliklərin profilaktikası siyasəti üzrə dialoqun genişləndirilməsi və bu istiqamətdə görülən tədbirlərin analizinin aparılması məsələlərinə dair tədbir keçirildi. Tədbirdə Azərbaycan, Qırğızıstan, Özbəkistan, Qazaxıstan və digər ölkələrin nümayəndələri, səhiyyə və tibb işçiləri, ictimai səhiyyə mütəxəssisləri və ekspertlər təmsil olunurdu. İSİM-in Monitorinq və təhlil şöbəsinin müdiri İnara Makayeva, İctimai sağlamlıq şöbəsinin müdiri Tofiq Musayev və Səhiyyə kommunikasiyası şöbəsinin müdiri Laura Quliyeva tədbirdə iştirak etdilər.



21-22 iyun 2022-ci il

## Berlin şəhərində “Xəstəliklərin yükünün təhlili” mövzusunda təlim keçirildi



4-7 iyul 2022-ci il

Beynəlxalq BOCO-19 tədqiqat layihəsi çərçivəsində “Xəstəliklərin yükünün təhlili” mövzusunda olan təlimdə İSİM-in şöbə müdiri Nabil Seyidov iştirak etdi. COVID-19 və ürək-damar xəstəliklərinin yükünün təhlilinə həsr olunmuş təlimdə nümayəndə heyəti tərəfindən təqdimatlar edildi və təhlillər aparıldı.

## ÜST-nin “PROACT-Qayğı” layihəsi çərçivəsində Türkiyədə keçirilən təlimlərdə iştirak edən İSİM-in nümayəndəsinə sertifikat təqdim olundu

Türkiyənin İzmir şəhərində keçirilən təlimlərdə iştirak edən nümayəndələr arasında İSİM-in Tibbi keyfiyyət standartları şöbəsinin həkim metodisti Vəfa Ağayeva da var idi.



13 iyul 2022-ci il

## İSİM-in nümayəndələri Tbilisidə keçirilən beynəlxalq seminarda iştirak etdilər

İSİM-in nümayəndələri – Səhiyyə siyasəti və planlaşdırma şöbəsinin müdiri Nabil Seyidov, İlkin səhiyyə və ailə təbabəti şöbəsinin müdiri Lütfi Qafarov və İctimai sağlamlıq şöbəsinin müdiri Tofiq Musayev CATINCA layihəsi çərçivəsində Tbilisidə keçirilən "Xəstəliklərin yükü – ümumi anlayışlar" mövzusunda seminarda iştirak etdilər.

Seminarın təşkilində məqsəd metodoloji bacarıqların formalaşdırılması, əhalinin sağlamlığının ümumi göstəricilərinin qiymətləndirilməsi üçün məlumat infrastrukturunun təkmilləşdirilməsi və səhiyyə siyasətinə uyğun səhiyyə informasiya sistemlərinin inkişafına töhfə verməkdir.



9-11 may 2022-ci il



## İSİM-in direktoru Qəhrəman Haqverdiyev Gürcüstanda risk kommunikasiyası üzrə keçirilən görüşdə iştirak etdi



10-12 oktyabr 2022-ci il

Tiblisi şəhərində "Səhiyyə sahəsində fövqəladə hallar zamanı ictimaiyyətlə əlaqələr və risk kommunikasiyası" mövzusunda görüş keçirildi.

ÜST-yə üzv dövlətlər arasında keçirilən görüşün əsas məqsədi ölkələrdə risk kommunikasiyası və ictimaiyyətlə əlaqələr sahəsində həm qısa, həm də uzun müddətli dövr üçün prioritet tədbirləri müzakirə etmək, fövqəladə hallar zamanı ictimaiyyətlə əlaqələrin daha səmərəli qurulması istiqamətində iştrakçıların bilik və bacarıqlarının artırılması idi.

İSİM-in direktoru Qəhrəman Haqverdiyev COVID-19 pandemiyası dövründə ölkəmizdə görülən işlər, səhiyyə istiqamətində həyata keçirilən tədbirlər barədə iştirakçılara ətraflı məlumat verdi.

## Qazaxıstanda Avropa regionu ölkələrinin iştirakı ilə tədbir keçirildi

ÜST Avropa Regional Bürosunun dəstəyi ilə Almatı şəhərində "BRİEF: ilkin səhiyyə xidməti səviyyəsində qeyri-infeksion xəstəliklərin risk faktorlarına qarşı inteqrasiya olunmuş qısa müdaxilələr" təlimatının təqdimatı üzrə tədbir keçirildi.

İSİM-in İctimai sağlamlıq şöbəsinin müdiri Tofiq Musayev tədbirdə iştrak etdi. Tədbirdə nümayəndələr QİX-in risk faktorları, əhalinin sağlamlığının qorunmasında vacib addımlarla yanaşı, qısa müdaxilələrə dair inteqrasiya olunmuş təlimatlar və praktik məlumatlar əldə etdilər.



15-16 noyabr 2022-ci il

# Hesabat 2022

Tədbir, aksiya, təlim, konfrans
150-dən çox

İSİM tərəfindən hazırlanaraq nəşr edilən maarifləndirici materiallar 55

İSİM saytlarının ümumi istifadəçi sayı 168 589
www

İnstaqram
İzləyici sayı 5152
Yeni izləyici sayı 3283
Postlara gələn ümumi "like" sayı (son 3 ay ərzində 3254)

Teleqram izləyici sayı 60
Linkedin izləyici sayı 628
Tvitter izləyici sayı 61

Fb canlı yayım 6

Maarifləndirici qısa videolar 15

12 301
İSİM sosial şəbəkələrdə daimi izləyici sayı

Feysbuk
İzləyici sayı 6441
Ziyarət sayı 13 545
*Səhifədə paylaşım sayı* 371
*Paylaşımların bəyənilmə sayı* 13 247
Paylaşımların fərqli hesablardan paylaşılması 3423

TV və radioda müsahibə, çıxış
100-dən çox

İSİM tərəfindən klinik protokollar yenilənib 54

Monitorinq edilib
Bakı şəhəri üzrə COVID-19 məntəqələri 42
Tibb məntəqələri
5 rayon
25 kənd

Xəbər 94

YouTube

| | |
|---|---|
| İzləyici sayı | 354 |
| Video sayı | 350 |
| Baxış sayı | 39021 |

# Report 2022

**More than 150**
events, actions, trainings, conferences

**Educational materials**
developed and published by ISIM **55**

**Instagram**

Followers **5152**
New followers **3283**
Total like count per posts
**(last 3 months 3254)**

Total İSİM's websites subscribers
**168 589**
www

Telegram followers **60**
LinkedIn followers **628**
Twitter followers **61**

**Facebook live streaming 6**

Educational short videos **15**

**12 301**
Number of active users of ISIM on social network

**Facebook**

Followers 6441
Visits 13 545
*Posts on page* **371**
*Liked posts* 13 247
Posts shared by other accounts
**3423**

**More than 100**
interviews and speeches on TV and radio

Clinical protocols updated by ISIM **54**

**Monitored**
Covid-19 medical stations in Baku **42**
First aid posts
**5 districts**
**25 villages**

News
**94**



YouTube

| | |
|---|---|
| Followers | 354 |
| Videos | 350 |
| Views | 39021 |

**Səhiyyə Nazirliyi**
**İctimai Səhiyyə və İslahatlar Mərkəzi**
**bütün təşkilatları**
**əməkdaşlığa çağırır**

Bakı, AZ1122, Zərdabi küç., 96

431 12 72   430 52 85   office@isim.az

www.isim.az